

**RİZVAN CƏBİYEV,**
Azərbaycan Respublikası
Milli Məclisinin deputatı

## SÖZÜN VƏ SÖZÜNÜN SAHİBİ

Planetimizdə sivilizasiyanın müasir inkişaf mərhələsini sənaye cəmiyyətindən informasiya cəmiyyətinə keçid mərhələsi kimi qiymətləndirmək olar. İnformasiya və telekommunikasiya həyatımıza daha dərindən müdaxilə etdikcə vətəndaşın, cəmiyyətin, dövlətin, siyasi və iqtisadi fəaliyyətin inkişafı üçün yeni, unikal, effektli imkanlar açılır. Bu, elə potensial güc, elə potensial qüvvədir ki, onu lazımınca dəyərləndirmək, onu görməmək, hesaba almamaq, sadəcə mümkün deyil. İnkişaf etmiş əksər dünya ölkələrində söz, media demokratiyanın və bütövlükdə cəmiyyətin inkişafının açarı hesab olunur. Avropa ölkələrində çox haqlı olaraq belə hesab edirlər ki, bu gün həyatımıza, arzularımıza, maraqlarımıza, bütövlükdə fəaliyyətimizə informasiyanın təsiri siyasətçilərin, iqtisadçıların, hətta hərbçilərin təsirindən qat-qat güclüdür.

Kiminsə uğursuz qələmiylə iyirminci yüzilliyə "atom əsri" damğası vurulub. Lakin bu gün atom bombasından daha güclü bir silah var, bu silahın adı informasiyadır. Heç kəs bunu əsla gəlişigözəl söz kimi qəbul etməsin. İnformasiya ilə dünyanı silkələmək, lərzəyə gətirmək, ən populyar, ən qüdrətli insanın karyerasına bircə anda son qoymaq mümkündür. Xüsusilə elektron informasiya sisteminin yaradılması bu sahədə əsl inqilabi çevrilişə səbəb olmuşdur. İndi bir göz qırpımında informasiyanı dünyanın ən ucqar guşələrinə yaymaq və əsl sensassiya yaratmaq mümkündür. İnformasiyanın gücü insanın mənəviyyatına, qəlbinə və düşüncəsinə təsirindədir. Söz bir sənət nümunəsinə çevriləndə möcüzələr yaradır. Dünya tarixinin ən ibrətamiz dərslərindən biri odur ki, sözə və sözünə sahib olmayanlar heç vaxt öz ölkəsinə layiqincə sahib ola bilməmişlər.

Altmış doqquzuncu ildə Amerika Birləşmiş Ştatlarında baş verən hadisələr bəlkə də çoxlarının yadından çıxıb. Vyetnamdakı qanlı müharibə sadə amerikalıları cana doyurmuşdu. Yüz minlərlə insan kütləsi ölkənin hər yerindən Vaşinqtona axışır, mitinqlər ara vermirdi. Konqres prezident Niksonun istefasını tələb edirdi. Niksonun bir çox partiya həmkarları da ondan üz döndərmişdilər. Amerika tarixi bəlkə də bundan kritik bir dönəm yaşamamışdı. Prezident həyəcan və əndişə içində idi. Noyabrın 3-də televiziya ilə xalq qarşısında çıxış edəcəkdi. Lakin nə desin, prezidenti və Amerikanı xilas edəcək sözləri haradan tapsın? Gecədən xeyli keçənədək Kemp Deviddəki otağında yalqız qalan Nikson hazırlanmış çıxışının mətnini dönə-dönə oxuyur, ancaq nəyinsə çatmadığını hiss edirdi.



Nəydi bu lənətə gəlmiş sözlər? Həyəcanlanmış, qızışmış, kükrəmiş insan selini necə, hansı sözlərlə sakitləşdirmək, ruhunu oxşamaq, ram etmək olardı? Gecədən xeyli keçəndən sonra ağlına gəlmiş bir fikir qəlbini işıqlandırdı. Əlinə qələm alıb mətnin sonuna bu sözləri əlavə etdi: "Bu gün sizə, mənim böyük amerikalı həmvətənlərimin susan əksəriyyətinə müraciət edərək sizin yardımınızı diləyirəm. Gəlin sülh naminə birləşək. Gəlin eləcə də məğlubiyyət əleyhinə birləşək. Gəlin eləcə də anlayaq ki, Şimali Vyetnam Birləşmiş Ştatları məğlub edə, yaxud alçalda bilməz. Bunu yalnız amerikalılar özləri edə bilərlər".

Çıxışdan sonra teleqram, məktub və telefon zənglərinin ardı-arası kəsilmirdi. Hellap institutunun keçirdiyi rəy sorğusuna görə "susan amerikalılara" müraciətdən sonra Niksonun reytinqi birdən-birə on bir bal yüksəlmişdi.

Mən 1994-cü il oktyabr ayının 4-də Heydər Əliyevin xalqa müraciətini xatırlayıram. O hüznlü, kədərli, ancaq qətiyyətli və məğrur səsin ehtizazı hələ də qulaqlarımdan getməyib. Birbaşa xaricdən yönəldilən mürtəce qüvvələr zor işlədərək silahlı qiyam yolu ilə dövlət çevrilişi etməyə cəhd göstərirdilər. Mahir və Rövşən Cavadov qardaşları 8-ci kilometr qəsəbəsindəki qərargahdan öz süngülərini Bakının ürəyinə tuşlamışdılar. Baş nazir Surət Hüseynova məxsus dəstələr Gəncədə həyati əhəmiyyət kəsb edən bütün strateji xətləri ələ keçirmişdilər. Yevlaxda surətçilər icra hakimiyyətini tutmağa çalışırdılar. Kiçik bir qığılcım bəs idi ki, "yanğın" ölkənin hər yerinə yayılsın. Azərbaycan dövləti təhlükə altında idi. Belə ağır bir məqamda prezident xalqa müraciət edirdi.

"Hörmətli həmvətənlər, əziz bacılar və qardaşlar. Sevimli Azərbaycan xalqı!" Sözlər ən adi sözlər idi, ancaq bu sözlərdəki həyəcan, bu sözlərdəki sadəlik və dəmir məntiq qəlblərə işləyirdi, ekran qarşısında oturan milyonlarla azərbaycanlının, sadə insanların gözlərindən axan yaş ürəklərinə süzülürdü. Onlar heç vaxt Heydər Əliyevi bu dərəcədə qüssəli və eyni zamanda bu dərəcədə məğrur görməmişdilər. Çətin günlər üçün doğulan və çətin günlər üçün yaşayan insanlar ağır sınaq dəqiqələrində daha mətin, daha cəsur və daha uzaqgörən olurlar. O sərin payız axşamından indi bizi uzun illər ayırır. Mən bu illər ərzində həmişə, dönədönə özümdən soruşmuşam: Prezidentin o axşamkı çıxışının gücü, təsiri nədəydi? Və həmişə eyni qənaətə gəlirəm: sadəliyində, həqiqiliyində və xalqa inamında!

"Mən xalqa həmişə ümid bəsləmişəm, həmişə xalqa güvənmişəm. Xalqın nə qədər qüdrətli və müdrik olduğunu daim bilib yəqin etmişəm".

Prezident Azərbaycanın başının üstünü fəlakət aldığı bir anda xalqa müraciət edirdi. Sözlər sanki bir əsgər kimi süngü ilə, intizamlı addımlarla hücuma keçmişdi. Sözlər bəzən alova dönüb qarsırdı, bəzən bumbuz olub dondururdu. Sözlər gah ipək kimi yumşalır, gah da toxmaq kimi müstəqilliyimizin əleyhinə qalxanların başına çırpılırdı. Sözlər o axşam canlıdan canlıydı, sözlər o axşam həm gülləydi, həm sipər, həm yaralayırdı, həm yaralara məlhəm sürtürdü. Sözlər o axşam savaşa çıxmışdı və bu savaşda düşmənin top-tüfənginə qarşı Heydər Əliyev həqiqəti əliyalın dayanmışdı!

Bu çıxışından sonra bütün Azərbaycan xalqı hayqıraraq ayağa qalxdı, yatmış vulkan oyandı sanki. Prezident Aparatının ətrafına bir milyondan çox adam topla-

şmışdı. Qiyam qaldıranlar xalqın yumruq kimi birliyi qarşısında qorxularından büzüşüb qınlarına girmişdilər!

Heydər Əliyevin Sözlə yaratdığı möcüzənin başqa bir xatirəsi.

1996-cı ildə Parisdə Fransa prezidenti Jak Şirak Azərbaycan prezidenti Heydər Əliyevin şərəfinə ziyafət verirdi. Ziyafətdə Heydər Əliyev qısa cavab nitqi söylədi. Ancaq bu nitq o qədər gözəl, aydın, rəvan, təsirli idi ki, bizimlə bir stol arxasında oturan Fransa Milli Bankının baş direktoru Jan Püre, məclisdə oturan bütün insanlar kimi ayağa qalxıb uzun müddət Heydər Əliyevi alqışladı. Sonra bizə, Azərbaycandan olan nümayəndə heyətinə üzünü tutaraq belə dedi:

- Azərbaycan xəritədə nöqtə boyda görünür. Adam bu balaca ölkədən belə nəhəng siyasətçinin çıxdığına inana bilmir. Vallah, bizim prezidentlərimizin yeri dəyişik düşüb.

Heydər Əliyev sözə və sözünə sahib prezidentdir! O sözün gücünə, qüdrətinə inanır və öz əməli ilə buna başqalarını da inandırmağı bacarır!

İyirminci əsrin sonlarında Azərbaycanın müstəqilliyini, azadlığını elan eləyənlərin sözün, mətbuatın azadlığını elan etməyə gücləri, cəsarətləri çatmadı. Halbuki Söz azad olmayınca cəmiyyət heç vaxt azad ola bilməz. Özlərini "demokrat" adlandırıb demokratiya libası geyinənlərin, Müsavat-AXCP yetkililərinin hakimiyyəti dövründə nəinki mətbuat üzərindən senzura götürülmədi, əksinə, prezident Ə.Elçibəyin 1993-cü il 15 aprel tarixli sərəncamı ilə təkcə hərbi məsələlər deyil, bütün məlumatlar üzərində yenidən senzura qoyuldu, jurnalistlərin informasiya almaq və yaymaq hüquqları tam məhdudlaşdırıldı. Mətbuatda və digər Kütləvi İnformasiya Vasitələrində Dövlət Sirrini Mühafizə edən Baş İdarənin fəaliyyəti xeyli dərəcədə sərtləşdirildi.

Demokratik prinsiplərə sədaqətini sözdə, bəyanatlarda deyil, işdə, əməldə göstərməyi bacaran Heydər Əliyev 1998-ci ildə kütləvi informasiya vasitələri üzərindən senzuranı ləğv etdi. Mətbuatda və digər KİV-də Dövlət Sirrini Mühafizə edən Baş İdarə isə tarixin arxivinə gömüldü. Bu, Azərbaycan Mətbuatı tarixində elə böyük, mühüm və əhəmiyyətli bir hadisədir ki, üstündən yüz illər ötsə belə, həmişə Heydər Əliyevin adı ilə bağlı olacaq.

Yaxşı yadımdadır, bəzi mühafizəkar qüvvələr mətbuat üzərindən senzuranın götürülməsinin tam əleyhinə idilər. Onlar hesab edirdilər ki, senzura götürülsə, ölkədə xaos, hərc-mərclik, fəlakət baş verəcək. Ancaq tarix Heydər Əliyev uzaqgörənliyini bir daha təsdiqlədi.

Heydər Əliyev dönəmində mətbuatla onun inkişafı, perspektivləri ilə bağlı görülən işlər saya-hesaba gəlməz. Məhz bu tədbirlər sayəsində mətbuatımız geniş nəfəs almış, KİV haqqında, teleradio fəaliyyəti haqqında yeni, daha mütərəqqi, Avropa standartlarına cavab verən qanunlar qəbul edilmişdir.

Heydər Əliyevin imzaladığı "Kütləvi informasiya vasitələri haqqında" qanunun nəinki MDB məkanındakı ölkələr arasında, həmçinin Avropada ən mütərəqqi, ən demokratik qanun olmasına heç kəsdə şübhə qalmasın. MDB məkanındakı ölkələr arasında ilk dəfə məhz Azərbaycan qanunvericiliyində ictimaiyyətin maraqlarına xidmət edən informasiyanın qorunmasına dövlət səviyyəsində təminat verildi.



MDB məkanındakı ölkələr arasında ilk dəfə məhz Azərbaycanda mətbuatın dövlət qeydiyyatı ləğv edildi, yeni mətbu nəşrlərin təsis olunması yolundakı bütün əngəllər aradan qaldırıldı.

MDB məkanındakı ölkələr arasında ilk dəfə məhz Azərbaycanda informasiya mənbəyinin açıqlanması üzərində qadağa qoyuldu, sözün və mətbuatın inkişafına yaşıl işıq yandırıldı.

Yeni Azərbaycan mətbuatı müstəqil Azərbaycanımızın, demokratiyanın körpə balasıdır və o, hələ özünün ilk kövrək addımlarını atır. Ötən əsrin özü kimi mürəkkəb və ziddiyyətli, cəmiyyətin bu günü kimi yoxsul, əzablı, həm də şərəfli ömür yaşayan Azərbaycan jurnalistikası böyük tarixi ənənələrə malikdir. "Əkinçi" qəzeti ilə başlayan mətbuatımız 128 il ərzində uzun və ziddiyyətli bir yol keçmişdir. Zaman-zaman dilinə və qollarına buxov vurulmuş, Söz də işıqlı, ziyalı insanlar kimi qaranlıq məhbəslərə atılmışdır. Jurnalistikamızın 128 illik tarixinə nəzər salanda çox vaxt Şəri zəfər libasında görürük, Yalanın ayaq tutub yeridiyinin şahidi oluruq.

Bu gün də mətbuatımız yalan, böhtan, iftira püskürür. Ancaq bu gün mətbuatımızdakı hərc-mərclik, xaos, qərəz və kin heç kəsi qorxutmasın. Azadlığın sərhəddi itəndə həmişə anarxiya baş verir. Dağ çayları günəşin hərarəti ilə aşıb-daşanda əvvəlcə lilli olur. İnsan qaranlıqdan işığa çıxanda həmişə gözləri qamaşır. Görünür, bu da bir tarixdir və biz onu yaşamağa məhkumuq. Hər şeyin, o cümlədən mətbuatın da zamana ehtiyacı var.

Səbəbsiz nəticə olmur. Bu gün həqiqətən mətbuatımızın vəziyyəti ağır, zaman-zaman hətta dözülməzdir. Avropada uzun illərdən bəri cilalanan psixoloji iqlim, sabit iqtisadi məkan, cəmiyyət-media münasibətləri Azərbaycanda hələ formalaşmayıb. Əvəzində on illərdən bəri yığılıb qalmış çoxlu problem var, bu problemlərin bir çoxu, heç kəsə sirr deyil ki, elə mətbuatın özü tərəfindən yaradılır. İxtisassız, səriştəsiz jurnalistlər, siyasi qərəzkarlıq, ayrı-ayrı qrup və partiya maraqlarının açıq müdafiəsi, çoxsaylı məhkəmə araşdırmaları, bəzən jurnalistlərə əsassız hücumlar, təzyiqlər nəticə etibarı ilə həm cəmiyyətin, həm də mətbuatımızın zərərinə işləyir. Dövlətimizin başçısı Heydər Əliyevin ən kritik məqamlarda media mənsubları ilə görüşləri, mətbuatımıza Heydər Əliyev münasibəti açıq-aydın göstərir ki, diqqət, qayğı, mehriban söz polis dəyənəyindən qat-qat güclüdür.

Azad tənqid imkanı demokratik cəmiyyətin yaşaması üçün ən zəruri şərtdirsə, bu şərtin həyata keçirilməsində tərəfsiz, qərəzsiz və doğruçu olmaq mətbuatın ən müqəddəs vəzifəsidir. Zatən mətbuatın gücü də elə bundadır.

İndi gəlin görək bu qədər qəzet bolluğu içərisində bizdə tərəfsiz, qərəzsiz və doğruçu mətbuat varmı? Ötəri təhlil göstərir ki, ən azından tərəfsiz olduğunu yazanlar və qərəzsiz olduğunu göstərmək istəyənlər var. Əslində isə özümüzdə cəsarət tapıb etiraf etməliyik ki, bizdə tərəfsiz və qərəzsiz mətbuat, demək olar ki, yoxdur. Mətbuatımız ya hər hansı siyasi partiyanın nüfuzu altındadır, ya reklamçıya, ya sponsora, ya da istənilən pullu adama, hətta qrant aldığı xarici ölkənin mənafeyinə xidmət edir.

İqtisadi cəhətdən asılı olanlar siyasi cəhətdən heç vaxt azad ola bilməzlər. Buradan da ayrı-ayrı dövlət məmurlarına, siyasi liderlərə, cəmiyyətin digər aparıcı qüvvələrinə təhqirlər, böhtanlar, söyüşlər başlanır. Sözlərin və faktların manipulyasiyası həmişə insanların hüquq və azadlıqlarının pozulmasına gətirib çıxarır.

Siyasət meydanında missionerlik edən bəzi üzdəniraq jurnalistlər isə bu vəziyyətdən Şərə xidmət üçün məharətlə istifadə edirlər.

Həqiqətlə yalanın sərhəddi itəndə həqiqət həmişə yalanın əsirinə dönür.

İtalyan yazıçısı Umberto Ekonun çox gözəl bir sözü var, o deyir: "İndi faciə o deyil ki, insanlar heç nəyə inanmırlar, indi faciə odur ki, insanlar hər şeyə inanırlar".

İnsanların yalana alışması, bütövlükdə cəmiyyətin bu yalanlara biganə qalması, tarixin dəfələrlə sübut etdiyi kimi, çox ağır fəsadlar törədən faciələrə yol açır. Əlbəttə, bunun qarşısını almaq üçün dövlət vacib saydığı bütün tədbirləri həyata keçirməlidir.

Bu gün Azərbaycanda mütərəqqi mətbuat ənənələrinin qorunub inkişaf etdirilməsi, müasir beynəlxalq təcrübə ilə zənginləşdirilməsi, kütləvi informasiya vasitələrinin imkanlarının ölkəmizdə hüquqi dövlət quruculuğuna, vətəndaş cəmiyyətinin formalaşdırılmasına, demokratik islahatların həyata keçirilməsinə yönəldilməsi dövlət siyasətinin əsas məqsədlərindəndir.

Ölkə prezidenti Heydər Əliyevin söz və mətbuat azadlığına münasibəti, ona verdiyi önəm imzaladığı fərman və sərəncamlarda özünün bariz nümunəsini tapmışdır.

MDB məkanındakı ölkələr arasında ilk dəfə məhz Azərbaycanda mətbuata nəzarət eləyən dövlət strukturu – Mətbuat və İnformasiya Nazirliyi ləğv edilmişdir.

Bu cəsarətli addımı atmaq dövlət başçısının böyük iradəsi sayəsində mümkün olmuşdur. Avropaya inteqrasiya olunan, demokratik dəyərlərə ardıcıl şəkildə yiyələnən, demokratiya və bazar iqtisadiyyatının təməl prinsiplərini dövlət siyasəti səviyyəsinə qaldıran Azərbaycan inkişaf etmiş ölkələrdə söz və mətbuat azadlığına necə həssaslıqla yanaşıldığını, dünyanın və Avropanın bütün beynəlxalq təşkilatlarının bu sahəyə ciddi önəm verdiyini diqqətlə izləmiş və həmişə dəstəkləmişdir. Bu gün Azərbaycanda tamamilə yeni tipli, dövlət nəzarətindən uzaq, qəzetlərin özü tərəfindən təsis olunan Mətbuat İnstitutu yaradılmaqdadır. Əlbəttə, belə bir institutun yaradılması bu gün reallığa çevrilirsə, heç şübhəsiz ki, bu, dövlətimizin və onun başçısının yaxından köməyi, xeyir-duası ilə mümkün olmuşdur.

Dövlət başçısının Sözə və Mətbuata necə yüksək qiymət verdiyi və qayğı göstərdiyi onun 2001-ci il iyul ayının 20-də imzaladığı "Kütləvi İnformasiya vasitələrinə dövlət qayğısının artırılması haqqında" fərmanında, 2001-ci il 27 dekabr və 2002-ci il 5 sentyabr tarixli sərəncamlarında öz təsdiqini tapmışdır.

Bu fərman və sərəncamlara uyğun olaraq qəzet kağızına tətbiq olunan əlavə dəyər vergisi aradan qaldırılmış, yayım haqqı tarifləri ucuzlaşdırılmış, özəl teleradioların yerlərdə yayılması ilə bağlı tariflər azaldılmış, qəzetlərin "Azərbaycan" nəşriyyatına olan borcları 2005-ci ilədək yenidən dondurulmuş, kütləvi informasiya vasitələrinə Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondundan 3 milyard manat vəsait ayrılmışdır.



Prezidentin sərəncamında xüsusi olaraq vurğulanmışdır ki, "jurnalistlərin peşə fəaliyyəti ilə əlaqədar təqib edilməsi və onlara təzyiqlərlə bağlı daxil olan bütün müraciətlər ciddi şəkildə araşdırılsın, bu sahədə cinayət törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsi təmin olunsun".

Həmçinin prezidentin sərəncamı ilə müstəqil mətbuatımızın formalaşdırılması və inkişafında xüsusi xidməti olan redaktorların, aparıcı qəzet redaksiyalarının mükafatlandırılması, istedadlı jurnalistlərə adlı prezident təqaüdlərinin verilməsi nəzərdə tutulmuşdur.

Tam məsuliyyətlə deyirəm, bu gün postsovet məkanındakı ölkələrin heç birisində Sözə və Mətbuata Azərbaycanda olduğu qədər diqqət və qayğı göstərilmir. Ölkənin yoxsulluğuna və büdcənin kasadlığına baxmayaraq qəzetlərin borclarının dondurulması, bir sıra istiqamətlər üzrə tariflərin aşağı salınması, əlavə dəyər vergisinin aradan götürülməsi, kütləvi informasiya vasitələrinə uzun müddətli kreditlərin ayrılması və bu işin gələcəkdə də davam etdiriləcəyi ölkə prezidenti Heydər Əliyevin Sözə və Mətbuata xoş, ılıq münasibətinin müjdəsidir.

Bu il fevralın 17-də prezidentin fərmanı ilə informasiya və kommunikasiya texnologiyaları sahəsində dövlətimizin uzun müddətli Milli Strategiyası qəbul olundu.

Dövlətimizin başçısının razılığı və tapşırığı ilə Azərbaycanda analoqu olmayan yeni tipli televiziyanın – ictimai televiziyanın yaradılması sahəsində son tamamlama işləri başa çatmaqdadır. 2003-cü il Azərbaycanda ictimai televiziya ili olacaqdır!

Bu gün ölkə prezidenti Heydər Əliyevin daxili və xarici siyasəti bazar iqtisadiyyatına söykənən müstəqil, demokratik bir cəmiyyət qurmağa yönəlib. Bu cəmiyyətdə kütləvi informasiya vasitələri xüsusi çəkiyə malikdir.

İnkaredilməz həqiqətdir ki, gələcəyimiz həm də dövlətin informasiya siyasətinin düzgünlüyündən asılıdır. Bu gün bəşəriyyət özünün elə inkişaf mərhələsinə daxil olub ki, informasiya açıq, çox real və mən deyərdim, fiziki cəhətdən aydın hiss olunan qarşısıalınmaz gücə çevrilib.

Bu gücü nə yuxarıdan, nə aşağıdan idarə eləmək mümkün deyil. Onu ağıllı siyasətlə ictimai maraqların təmin olunmasına yönəltmək, istiqamətləndirmək olar. Vay o günə ki, bu güc, bu qüdrət qara niyyətli qüvvələrin əlinə keçə. Təxminən 200 il əvvəl sionistlər öz proqramlarında yazırdılar ki, əgər biz dünyanı idarə etmək istəyiriksə, birinci növbədə kütləvi informasiya rıçaqlarını özümüzə tabe etdirməliyik.

Tərəqqi, inkişaf yolunda ilk körpə addımlarını atan mətbuatımız özünün böyük dostu və hamisi möhtərəm prezidentimiz Heydər Əliyevin yaxından köməyi və qayğısı sayəsində xaos və hərc-mərclik dönəmindən mətanətlə çıxacaq. Mən Xeyirlə Şərin mübarizəsində Xeyirin qələbəsinə inanıram. Mən mətbuatımızın mübarizəsində ağılın, müdrikliyin qələbəsinə inanıram.